**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 yanvar 2015-ci il tarixli 130 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 109 saylı Balakən seçki dairəsindən Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Muradov Mustafa Murad oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsinin 1, 2, 4 və 5 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının baş verdiyini və bununla bağlı şikayətinin araşdırılmasına dair dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 29/103 saylı qərarının əsassız olduğunu iddia edərək həmin qərarın ləğv edilməsini və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma zamanı müraciətdə mübahisələndirilən seçki məntəqələri məntəqə seçki komissiyaları üzvlərinin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Ərizəçi M.M.Muradovun müraciətinin araşdırılması zamanı 109 saylı Balakən seçki seçki dairəsinin 1, 2, 4 və 5 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları üzvlərinin, Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçilməmiş namizədlərin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izahatlarına və tərtib edilmiş aktlara əsasən müəyyən edilmişdir ki, mübahisələndirilən seçki məntəqələrində səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, hər bir seçici aktiv seçki hüququnu hər hansı təsir olmadan reallaşdırmış, səsvermə prosesi əvvəldən sona qədər müxtəlif siyasi partiyaları  təmsil edən və öz təşəbbüsü ilə müşahidə aparan müşahidəçilərin bilavasitə müşahidəsi ilə həyata keçirilmişdir.

Belə ki, 109 saylı Balakən seçki dairəsinin 1, 2, 4 və 5 saylı məntəqə seçki komissiyasının üzvləri A.N.Ağayeva, M.Q.Qarayeva, N.M.Qarayev, Ş.Ş.Motuxova, C.M.Qaralova, G.B.Xəlilova, G.Nastakalova, A.M.Əzizova, R.P.Rəhimli, İ.Ə.Soltanov, V.Ə.Əlimərdanov, D.İ.Qaraçayeva, V.K.Ocaqverdiyev, H.N.Cantayev, A.A.Xurtunova, Y.S.Zamanova, S.Z.Qədirova, Ü.R.Əliyev, T.R.Mahmudov, İ.O.Qallacov, müşahidəcilər E.V.Əliyeva, K.P.Həsənova, R.R.Süleymanova, N.M.Osmanov, K.R.Bayramova, Z.A.Nəcəfov, E.R.Əzimova, S.H.Murtuzayeva, B.C.Şaşqayeva, R.C,Musayev, E.M.Haciyev, E.Q.Hacıyeva, C.E.Əliqayeva, F.Ə.Molulova, E.R.Abbasova, S.Z.Murtuzova, Ə.T.Bayramova, M.İ.Müsalimova, İ.Ə.Rəhimova, Ə.K.Hacıyəv, Ə.Ə.Alqayev, R.T.Tağıyev, M.S.Tosova, Ş.B.Abdullayev, D.Q.Qardaşova, Q.S.İsamyılov, G.C.Hacıyeva, K.M.Vaslarov, M.S.Quliyeva, N.Z,İsgəndərova, O.H.Qurbanova, X.M.İsaxəliyeva, V.Ə.Məmmədova, M.T.Dibirov, Ş.Ə.Tütünçüyeva, S.E.Qarayeva, R.N.Qaraçayev, İ.Ş.Saramonov, N.M.Süleymanov, Ə.R.Kazımova, Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçkilərdə kifayət qədər səs toplamamış 26 nəfər namizəd izahatlarında bildirmişlər ki, seçkilər günü səsvermə prosesində hər hansı qanun pozuntusu müşahidə edilməmiş, səsvermənin gedişinə müdaxilə olunmamış, eyni zamanda hər bir seçici şəxsən səs vermiş, səslərin hesablanması qanunauyğun aparılmış, səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyasının protokolu seçki məntəqəsində tərtib edilmişdir.

Ərizəçi tərəfindən seçkilər günü səsvermədə təkrar iştirak etdikləri iddia olunan M.S.Quliyeva, F.Ə.Molulova, X.M.Mustafayeva, K.H.Vasovlar, Ə.İ.Musayeva və A.M.İsayeva izahatlarında onlar tərəfindən başqa şəxslərin əvəzinə səs verilməsinin əsassız olduğunu bildirmişlər.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 109 saylı Balakən seçki dairəsi dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 29/103 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında "Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 109 saylı Balakən seçki dairəsindən Balakən bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Muradov Mustafa Murad oğlunun 5 yanvar 2015-ci il tarixli 130 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 29/103 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov